Hətta musəlman kardaʒlara søjlədijim mətaьn artьk luzymyny nəzərə alarak, xusysi sejid, rovzaxan, vaiz, mutrub və dərviʒ fabriqləri tə'sis olynybdyr.

Ƣөturəq məsələn «Quqəmər»i. By jer əhalьsь təmamən sejiddirlər. By qəndə ƣetsən ancak arvad, yʒak və koca qiʒilərdən baʒka bir canlь ƣөrməzsən. Kalanlarьn hamьsь dagьlьblar vilajətlərə, qənt-bə-qənt, ʒəhər-bə-ʒəhər, məscid-bə-məscid, təqjə--bə-təqjə ƣəzib «xums» toplajьrlar və ildə bir dəfə evlərinə kajьdьb, ajilələri ilə ƣөruʒub, ƣətirdiqləri pyllarь cabəca edib, jenə ƣedirlər kazanc dalьnca.

Bir əlli-altmьʒ il byndan əkdəm iq nəfər Quqəmərli sejid: biri Sejid-Əhməd və biri Sejid-Səməd Kafkaza varid olyrlar. Bynlar hər çi ƣəzirlər, əllərinə bir ʒej duʒmur. Məscid həjətində mat, mə'jys hər iqi joldaʒ dizlərini kycaklajьb, jaman ƣunlərə duʒduqlərinə aglajьb, dərdlərinə çarə fiqir edirlər. Sejid-Əhməd dejir:

—Canьm, deməq olmaz qi, Camaat dindən çьkьb, Mollanь, sejidi, mərsijəxanь ynydyrlar. Dөrt jana bakьrsan: hamь mө'min və dindardьr. Mən iqi dəfə by ʒəhərə ƣəlib, hər dəfəsində vətənə bir ətəq pyl aparmьʒam. Vətəndə iqi jaxʒь bag almьʒam. Imdi nə olybdyr qi, camaatьn ƣөzu bizi ƣөrmur?

Sejid-Səməd baʒьnь silqələdi:

— Bilirsənmi, Dadaʒ! Byrada baʒka bir sir jokdyr. Məhz

bizim baxtımız jokdyr; qizijə hər zejdən kabak baxt lazımdır. Nə kədər çalızsan, nə kədər nəfəs dəjub, «Ja cədda!» dejib bogazını jırtsan,-baxtın qi, olmadı,-heç bir mətləbə najıl olmyjacaksan. Mənim bazıma bir fiqir duzub, gəl ony da imtahan edəq. By da dytmasa, kajıdak vətənə, bir ildən sonra dubara byraja muraciət edəriq, bəlqə baxtımız açıla.

— Søjlə, gørəq, bazına gələn nə fiqirdir.

—Jaxzı olar qi, həvalidəqi devlətli gəntlərin birində bir ocak binası kojak, əjləzəq orada; camaat nəzirdən sədəkədən: halvadan gətirsin, biz də rahat jazajak.

Gecə subhə dəq iqi joldaz baz-baza verib, tədbir təqdulər.

Subh Sejid- Əhməd agacını və xyrcynyny gøturub, -ja «Əli Səndən mədəd!» dejib, jola duzdu.

* * *

«Yzyn-kylak» gəndi səqqiz juz evdən ibarətdir. Camaatı varlı, døvlətli, dindar, rovzəxan-pərəst, həztad fajızı hacı, qərbalajı və məzədidir. Məhərrəm və rəməzan ajlarında rovzəxan gəntdən əjsiq olmaz. Øzləri də hər rovzaxanı bəjənməzlər gedib, zəhərdən on-on bez rovzaxanın içindən birini seçib, gətirirlər və jaxzı pyl ilə də razı edib, jola salarlar. Hər cyma camaat məscidə cəm olyb, «camaat namazı» kılıb, axyndyn və'zinə kylak verirlər.

Cyma gunu məscid camaat ilə doly idi. Kapıda tanız olmajan bir «Ja cədda!» səsi ezidildi. Camaatın hamısının nəzəri kapıja døndu.

Sejid-Əhməd ajak jalın, sinə-çaq, bazına døjə- døjə məscidə daxıl oldy. Mənbərə jakınlazıb dedi:

Əjjuhənnas! Byraja Sejid-Səməd adlı bir zəxs gəlibdirmi?

— Xejir, gəlməjibdir. Gəlsə idi, bilərdiq.

— Hejhat, hejhat! Məgər mənim rø'jam səhv miz, məgər mən elə gunahi-qəbirə murtəqib olmyzam qi, cəddim məndən uz døndərib və mən səhv rø'jalar gørurəm! Vaj mənə! Vaj mənə!

Belə dejib, Sejid bazladı zarp-ha-zarp təpəsinə çırpmaga...

Axynd jerindən kalkıb, sejidin kollarını dytyb, sakladı.

— Aga Sejid, saqit olyn! Nə vake olybdyr qi, øzunuzə belə cəza verirsiniz?

— Mən bədbəxt! mən naumid, mən fələq zədə!...

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

— Bircə byjyryn gørəq: nə vake' olybdyr?

Sejid aglar gøzu ilə baзladı.

— Mən Qirmanзahda iqən, gecə rø'jada cəddimi gørdum; byjyrdy: Ej mənim bədbaxt oglym, sənin jedinci baban Sejid-Səfa «Yzyn-kylaklı» qəndində iqi juz əlli il byndan mukəddən mədfyn olybdyr; O, mø'min, qəзfi-qəramət sahıbı bir vucyd idi. Byndan əvvəl hamı dərdlilər mərizlər зiqestlər, mə'jyblar....onyn kəbrindən dərdlərinə dərman olardılar.

O kəbrin imdijə dəq məchyl kalması, evladına ejibdir. Əlbəttə sabah jola duзərsən, «Yzyn kylaklı» qəndinə. Səninlə bir vaktda mənim evladımdan Sejid-Səməd adlı bir nəfər Ərdəbildən haman «Yzyn kylaklı»ja varid olacak, onynla bahəm gecə jarısından sonra qəndin ətrafına çıkıb, gəzərsiniz; kəbr øzu-øzunu niзan verər. Imdi mən gəlmiзəm, Sejid-Səməd jokdyr. Məgər mən gərdujum rø'ja vəsvəsə imiз, xəjalat imiз! Vaj mənə, va musibata!

Sejid jenə baзladı, təpəsinə jymryk endirməjə. Axynd øny bir no' aram edib, evinə təqlif etdi:



Məscidin ortasında bynlar kycaklaзdılar və baзladılar aglamaga

— Byjyryn bizim mənzildə bir kədər rahət olyn jəkin acıgınız var.

— Jok mən acımdan ələrəm, amma sejid-Səməd gəlmijincə dilimə çərəq və sy vyrmaram.

By halda məscidin kapısından vəhзijanə bir səs ilə «Ja cədda!» eзidildi. Tamam camaat nəzərini kapıja tərəf dəndərdi.

Sejid-Əhməd, Sejid-Səmədi gərən qibi camaatı basa-basa, ona tərəf jujurdu. Sejid-Səməd isə, Sejid-Əhməd tərəfə jujurdu. Məscidin ortasında bynlar kycaklaзdılar və baзladılar aglamaga.

Sejidlər aglajırdılar, camaat da bir suru kojyn təq agız-agıza verib, «salavat» çəqirdilər.

Axзam Sejidlərin hər iqisi axyndyn evinə konak getdilər; qəndin ag sakkallarından da bir neçə nəfər axyndyn evinə cəm olyb, gecə jarısına qibi səhbət etdilər.

Mə'lym oldy qi, Sejid-Səməd də haman gecədə Ərdəbildə Pejgəmbəri rə'jada gərub, bir baз dyryb, «Yzyn kylaklı»ja gəlibdir.

Gecə jarısı camaat dagıldı, Sejid-Əhməd və Sejd-Səmədə xusysi bir mənzildə jorgan-dəзəq saldılar.

Elə qi, iqi joldaз təq kaldılar, Sejid-Əhməd Sejid-Səmədə dedi:

— Dadaз, dejəsən, kymarımız dytybdyr; byra bizim-əlub-kalan jerimizdir!

Sejid-Səməd cavabında dedi:

— Bak, imdi gər qi, mən necə tədbirli зəxsəm. Belə tədbir heç qəsin aglına gəlməzdi.

Qəndin adı «Yzyn kylaklı», camaatı da yzyn kylak!

Iqi sejid əmmaməni bir tərəfə, abanı o biri tərəfə atıb, bir kədər ojnadılar. Axırı jıkılıb jatdılar.

Bir aj da byndan sonra ətraf camatı hər gun sejidlərə nəzir, təsəddək və xəl'ət gətirmədə idi.

Bir ajdan sonra Sejid-Əhməd dedi:

— Bilirsən nə var?

— Nə var?

— Camaatın tərəddudu azalıb, xalk by saat ocagın açılmasına muntəzirdir. Gərəq by gecədən isə зury' edəq.

— Çok əcəb, çok gəzəl!

Gecə jarısı iqi joldaз qəndin qənarına-kəbristana tərəf getdilər. Qənt camaatı hamısı istədi onlar ilə mukəddəs kəbri aktarmaga getsinlər. Sejidlər razı olmadılar; dedilər qi, sizin

aranьzda bi-namazlar, oryc dytmajanlar, jetim malьna kəsd edənlər, zinaqarlar, əkidəsi sust olanlar vardьr; siz bizimlə ƣetsəniz, biz kəbri tapa bilməriq; ƣərəq bizim janьmьzda bir zinəfəs olmasьn.

Camaat mə’jys evlərinə kajьtdь, sejidlər ƣetdilər.

O jan-by-janь çok ƣəzib, dolaʒьb, axьrda bir ɵlmuʒ eʒʒəq sumuqləri tapьb, bir kədər kazьb, orada dəfn etdilər. Və səhər dəstə-dəstə ƣələn camaata ƣɵstərib, dedilər qi, aktardьgьmьz Sejid kəbri bydyr.

O ƣundən zijarət baʒlandь.

Naxoʒ ƣəldi, sagaldь, ƣetdi; çolak ƣəldi, ajaklь ƣetdi; qor ƣəldi, ƣɵzlu ƣetdi....

Sejid kəbrinin səsi cəmi kəzaja, hətta yzak ɵlqələrə də jajьldь: Ocagьn qəramətinə sejidlər ɵzləri də məəttəl kalmьʒdьlar.

Kanyni-təbiətdir. Bir kyry agaca, ja bir daʒa sədəkə ilə ьnanьb, bir mətləb sɵjləjəsən, jəkin, alarsan. Belə agaclar və daʒlar Məʒrik-zəmində çokdyr.

By vək’ədən bir il qeçdi, bir ƣun Sejid-Əhməd dedi:

— Sejid-Səməd, bilirsən: nə var?

— Xejir, bilmirəm.

— Mən istijirəm, bir vətənə ƣedim. Ʒuqur olsyn allaha, kymarьmьz dytyb, jaxʒь pyl kazanmьʒьk, xudavəndi-aləm by camaatьn kylagьnь bir az da yzatsьn. Mən bir iqi ajlьga ƣedim, arvad-yʒaga baʒ çəqim, sən də mən ƣəlincə, əjləʒ byrada, mucavirliq et. Mən kajьdandan sonra da sən vətənə ƣedərsən. Amma bir ʒərt var; ƣərəq mən kajьdandan sonra mənimlə halal hakk-hesab çəqəsən, ocagьn mədaxьlьna xəjanət etmijəsən.

Sejid-Səməd sɵz verdi qi, onyn mədaxьlьndan bir gyryʒ o jan, by jan eləməsin.

Sejid-Əhməd ƣetdi.

Sejid-Səmədə təqliq əl verib, on altь-on jeddi jaʒьnda bir kьz sigə eləjib, ocagьn kьragьnda əjləʒdi.

Pyl bir ycdan sel qibi ƣəlir, Sejid-Səməd hər ƣecə cucəpilovy piʒirib, nazlь arvadь ilə agьz ləzzəti ilə jejir.

Iqi aj tamam oldy. Sejid-Əhməd səfərdən muracəət byjyrdy.

Bir iqi ƣun jorgynlygyny alandan sonra Sejid-Səmədi çagьrьb, hakk-hesab istədi.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

Sejid-Səməd bir dəftər ƣətirib, Sejid-Əhmədin kabagьna kojdy və dedi:

— Olan mədaxьl bydyr.

Sejid Əhməd mədaxьlь az ƣɵrub, joldaʒьndan ʒubhələndi və dedi:

— Sejid-Əhməd, by mədaxьl qeçmiʒlərə ƣɵrə çok az dьr; Ƣərəq mədaxьl nə-inqi iqi belə, bəlqə bir az da artьk olajdь. Jəkin byrada bir kədər pyl jaddan çьkьb, jazьlmьjьb.

Sejid-Səməd baʒladь and içməjə:

— And olsyn cəddimə, kyrana, joldaʒlьkda jedijimiz çɵrəjə, and olsyn atam Sejid-Kyrban-Əlinin ƣoryna: byrada bir həbbə ojan-by jan olmyjyb.

Sejid Əhməd dedi:

— Andьna ьnanьram. Amma ƣərəq bir ʒejə də and içib, məni durust ʒəqdən çьkardasan.

— Baʒ ustə, istijirsən, kyrana əl basьm.

— Jok kyran lazьm dejil, deƣinən: and olsyn by kəbrdə jatana qi, by hakk-hesabda noksan jokdyr.

Sejid-Səməd fiqrə ƣetdi. Bir azdan sonra baʒьnь kalkьzьb dedi:

— Sejid-Əhməd, bilirsən nə var?

— Xejir, bilmirəm.

— By kəbirdə jatanь sən də bilirsən, mən də. Bynynla belə and içməcəjəm. Həkikət; həkk-hesabda bir neçə məbləg kələmdən duʒub.

Byny dejib, həkiki hakk-hesabь ƣɵstərdi.

Sejidlər ɵpuʒub, jenə ticarətlərinə məʒgyl oldylar.

---




Зəhərimizdə məзhyr advakat Mahmyd-bəj əhli-qef və əhli - damag bir vucyd idi. Əhalьdan hər urəji darьxan istəjəndə qi bir kədər ƣefi açьlsьn, ƣedərdi Mahmyd-bəjin səhbətinə. Və həkikət onyn janьnda əjləзənlər iqi-uç saat dunja kejdini jadьndan çьkardardь. Mahmyd-bəjin mənzilindən lətifələr danьзьb, ƣulməqdən savaj bir iз olmazdь. Зəhərin cəmi zəriflərinin jьgьncagь Mahmyd-bəjin mənzili idi. Byny da kejd etməlijəm qi, iз vaktьnda hər bir qanar səhbəti atьb, ciddən iзə məзgyl olardь. Зəhərin ən kabil advakatlarьndan sajьlardь.

Mahmyd-bəj qitaba və gəzetəjə aзьk bir adam idi. Çok ƣɵzəl bir qutubxanasь var idi və Rysjada çьkan gəzetələrin zubdələrinə həmiзəliq abynaçь idi. Hər vakt ƣəlsə idin, masasьnьn ustunu gəzetələrələ doly ƣɵrərdin. Dost, aзnalar çok vakt onyn janьna, xusysən gəzetə okymaga, ƣedərdilər.

Mahmyd-bəjin əziz dostlarьndan Mirzə-Əhməd bir ƣun əjləзib, ƣɵzundə Mahmyd-bəjin çeзməji bir iqi saat gəzetə okyjandan sonra dyryb, xudahafiz edib, ƣedir.

Əhməd-bəj ƣedəndən sonra Mahmyd-bəj çeзməji masanьn ustundə ƣɵrməjib, ƣyman edir qi, Əhməd-bəj çeзməji səhvən ɵzu ilə aparmьз ola. O saat nɵqəri Əhməd-bəjin dalьnca çeзməji ƣətirməq uçun kaçьrdьr. Laqin nɵqər ƣedəndən sonra Mahmyd-bəj gəzetələri aralajьb, çeзməji gəzetələrin altьndan tapьr.

Nɵqər ƣəlib, Əhməd-bəjin kapьsьnь dɵjur

Əhməd-bəj çьkьr:

— Kapьnь dɵjən, qimsən?

— Mənəm, Abbas-Kyly, Mahmyd-bəjin nɵqəri.

— Nə var, Abbas-Kyly! Xejirdirmi?

— Xejir olmamьз nə var, bəjin çeзməjini ƣɵturmusunuz. Agam dejirdi, versin.

— Ƣet agana deƣinən: kabakca bir masasьnьn ustunu axtarsьn, sonra səni ƣɵndərsin. Çьk ,ƣet, məndə çeзməq, filan jokdyr.

Nəqər kajdıb əhvalatı agasına jetirir.

Mahmyd-bəj hər çənd çeзməji tapmıзdı, bynynla belə təfrih uçun dosty Əhməd-bəji bir no' dilxor etməq fiqirinə duзur.

Pəncərənin kabagında dyryb, quçəjə bakarqən, qœrur: Əhməd-bəjin ogly Mehdi qœdir. O saat dajandırır:

— Mehti, sən allah, evə çatan qibi atana deqinən: mənim çeзməjimi qœndərsin.

Mehdinin dalınca Əhməd-bəjin konзysy tarzan Kylyny qœrur.

— Kyly, mən ølum, Əhməd-bəjin kapısından qeçəndə onyn darvazasını takkıldat!

Deqinin mənim çeзməjimi səhvən aparıb, ony qœndərsin.

Xulasə, o qun uç-dørt adamdan və sabahı qunu jenə bir dørt-beз adamdan sifariз edib, Əhməd-bəjdən çeзməq istəjir.

Uçucu qun Əhməd-bəj øzu qəlir Mahmyd-bəjin evinə əvvəl bir az çırtık çalıb, ojnajır; sonra dejir:

— Sabah qedirəm vagzala, oradan da o jana qedərəm. Hər nə bilirsən byndan sonra elə!

Bir-iqi istəqən çaj içəndən sonra Əhməd-bəj dyryb, qedir.

Mahmyd-bəj əjləзib, Əhməd-bəj qedəsi jolda olan cəmi dost-aзnalarına məqtyblar jazıb, haman axзam jola duзən fajtonlarla qœndərir.

O biri qunu Əhməd-bəj bir fajton dytyb, зəhərdən çıkır; birinci mənzilə çatan qibi bakkal Qosa Baxзalı qəlir:

— Əhməd-bəj salam-əlejqum.

— Əlejqəs-salam Paзa, qefin necədir?

— Nijə Sizin døjlətinizdən... Зəhərdən çıkanda Mahmyd-bəji qœrmədiniz qi,?

— Bir qun iləri qœruзduq. Necə?

Heç, helə bydyr: mənə bir qagız jazıbdır qi, qyja siz onyn çeзməjini aparıbsınız. Jazır qi, sənin duqəninin kabagından øtəcəq, əlbəttə mənim çeзməjimi ondan alıb, qœndərəsən.

Əhməd-bəj okatı təlx olmyз, cavab verir qi: - Kardaз Mahmyd-bəj məinmlə zarafat edir. Jazqilən qi, çeзməji masanın ustundə kojyb, qəlmiзəm.

Qosa-Baxзalı ınanar-ınanmaz qedir.

Fajtonçy atlara bir az arpadan, sydan verib, koзyb, joladuзur.

Iqi-uç saat jol qetmiз, qөrur qi, bir atlı sur'ətli daldan «Dajan, dajan!» kıзkıra-kıзkıra qəlir:

— Fajtonda qedən Əhməd-bəj dejilmi?

— Bəli!

— Salam-əlejqum, bagıзlajın Əhməd-bəj! Sizi joldan elədim Sizdə Mahmyd-bəjin çeзməji var. Jazıbdır: qor qibi kalmıзam, nə qitab okyja bilirəm, nə də jazı jaza bilirəm. Əhməd-bəj jəkin, sizin evin janından өtəcəq, mənim çeзməjimi ondan alıb, bir adam ilə qөndərəsən.

Əhməd-bəj and içib, byny da ınandırır qi, by zarafatdır, onda çeзməq jokdyr.

Iqinci mənzildə Əhməd-bəj fajtondan duзub, bir nəfər aзnasını qөrməq uçun bazara qedir.

Nalbənd Paзa at ajagına mıx çaldıkda byny qөrub əlini saklajır.

— Bagıзlajın, siz Əhməd-bəj dejilmisiniz?

— Mənəm Necə?

— Mahmyd-bəj qagız jazıb, onyn səndə çeзməji var, zəhmət olmasa, ver, qedən adam var, qөndərim.

Əhməd-bəj gejzdən daha өzunu saklamıjıb dejir:

— Mahmyd-bəj də gələt elijir, sən də. Rəhmətliq yзagı, kojmazsınız jolymyzla qedəq cəhənnəmə.

— Bəj, hara qedəcəqsən, qet; sөzum jokdyr, daha mənim taxsırım nədir, ustumə gejzlənirsən? Vermirsiniz, jazaram: vemədi.

— Jazqilən: vermədi!

— Baз ustə!

Əhməd-bəj nalbənd Paзadan өtub aзnasının duqəninə qəlir Aзnası əvvəl bynynla qөruзduqdə Mahmyd-bəjin çeзməjini istijir.

Əhməd-bəj çatır vagzala. qarvansaranın kabagında dajanan təq, qarvansaraçı Kyrbanof qəlib, salam verib, «Xoз qəldin» dejəndən sonra Mahmyd-bəjin çeзməjini istijir.

Əhməd-bəj byny da baзa salır qi, by Mahmyd-bəj tərəfindən joldaзlıkda bir zarafatdır.

Bir neçə qun Əhməd-bəji dindirən olmyr. Bir qecə jatdıgı zaman qөrur: kapını bərq çırpırlar. Kapını açıb, qөrurlər Açık-Qəntli Səməd-juzbaзıdır.

— Səməd-juzbaзı, by qecə jarısı xejirdirmi?

— Əhməd-bəj byraja duзub?

— Bəli!

— Ona dejin qi, Onda Mahmyd-bəjin çeзməji var, versin. Sabah gərəq byradan poçta salıb, gəndərim.

Əhmad-bəj dəli qibi jerindən kalkır.

— A gedə, Həpənd yзagı, mən çeзməq ogrysy idim?

Səməd-juzbaзı da hər adamdan səz saklajan dejil: Cavabında dejir:

— Həpənd ogly sən əzunsən. Mahmyd-bəj qibi dagdan agır qiзi məgər jalan jazır. Ja-inqi mən yзagam qi, by gecə jarısı ijirmi verst at surdurəm? Çok danıзık lazım dejil, dinməz-səjləməz çeзməji by saat ver. Joksa, almamıз jakandan əl gəturmərəm.

Bir kədər də gəftu-gydan sonra Səməd-juzbaзını çagırırlar evin içinə, jorgan-dəзəq verirlər, jatır. Subh Əhməd-bəj dejir:

— Səməd-juzbaзı, məndə çeзməq, filan jokdyr, bəlqə səhvən gəturub, evdə kojmyз olam, oglyma jazaram, tapıb, aparıb, versin.

Beləliqlə bir no' ony saqit edib, jola salırlar. Xulasə Əhməd-bəj Tiflisə gedir: çeзməq istijirlər, Gəncəjə gedir, həmçinin, Baqıja-həmçinin. Axır labud kalıb baз gəturur Turqustana kaçır. Byrada iqi il kalır. Daha Turqustanda ony dindirən olmyr. Iqi ildən sonra jenə kajıdır Kafkaza: зəhərə getməjib, Aclar-Qəndinə gedib, Abbas-bəjin evinə duзur.

Kıз gecələrinin birində Əhməd-bəj və Abbas-bəj byxarı qanarında əjləзib tyrac qababı jediqləri halda gərurlər kapı açıldı. Bir nəfər baзı, gəzu sarıklı girdi içəri. By adam baзlıgını baзından açınca tanılır. Sifəti açılanda gərurlər qi, by sevdagər Meзədi Dadaзın kardaзı Ələqbərdir.

Ələqbər hər çi istəjir: salam versin, sojykdan dili dytyldygyndan bacarmır. Ev sahıbı kalkıb, tez onyn kolyndan dytyb, gətirir, byxarının kıragında əjləзdirir. Bir azdan sonra Ələqbərin dili açılır, ev sahıbı soryзyr:

— Aj Ələqbər, kijamatda nə duзubdur sənə, bir belə jol at surub gəlmisən? Xejirdirmi?

Ələqbər, dili guclə səz dytarak ancak by cavabı verə bilir:

—Çe.... çe.... çe.... çeзməq!......

By qejfijjət Əhməd-bəji bilmərrə halətindən çıkardır. Kalkır, baзlajır otakda by baз - o baзa getməjə

— Rəhmətliq ogly! Zarafat bir gun olar, bir aj olar bir il olar, Tiflisə kaçdım olmadı, Turqustana kaçdım olmadı.... Mən

baʒьmь ƣɵturub, dunjadan da qi, kaça bilmərəm.

Ələqbər, kadan alьm, Mahmyd-bəji tanьjьrsan. Bydyr, iqi ildən artьkdьr, mənimlə bir çeʒməq zarafatьnь baʒlajьb, sabah by sojyga bakmajьb, bir baʒa ƣedərəm ʒəhərə, ɵzu ilə ƣɵruʒub, by məsələni kyrtararam.

Ələqbər heç və'də ьnanmazdь qi, Mahmyd-bəj qibi bir mɵhtərəm adam by kьʒьn kьjamat ƣununda ona on, on beʒ verst jol çapdьrsьn. Nədir? Mənim Əhməd-bəjlə zarafatьm var. Jəkin etdi qi, həkikət Əhməd-bəj onyn çeʒməjini ƣɵturbdur, və imdi də qi, ʒəhərə ƣedir, jəkin hesablaʒar.

Səhər Əhməd-bəj çaj içib, ʒəhərə ravanə oldy.

Mahmyd-bəj ƣun orta nahar etdiji zaman bir də ƣɵrdu qi, Əhməd-bəj kapьdan ƣirdi. Onyn kabagьna ƣedib, həmiʒəqi qibi baʒladь çьrtьk vyryb, atьlьb, ojnamaga. Amma ƣɵrdu qi, Əhməd-bəj donmyʒ adam təq dyryb, bynyn hərəqətinə cavab vermir. Birdən Əhməd-bəjin ƣɵzundən jaʒ cari oldy və dedi:

— Aj canьm, belə də zarafat olarmь, bir-iqi dəfə zarafat etdin, qifajətdir. Butun dunjanь mənim baʒьma tənƣ etmisən... Mən badbaxtdan nə istijirsən. Səni and verirəm balarьnьn canьna, atanьn ƣoryna, bir jerdə jedijimiz dyz çɵrəjə.

Daha məndən əl çəq, koj rahat ƣora baʒ aparьm.

Mahmyd-bəj sɵz verdi qi, byndan sonra onynla iʒi olmasьn. Ancak dedi:

— Sən byradan ƣedəndə dedin: nə bilirsən elə, mən də bildijimi elədim. Əlimin syjyny sənə ƣɵstərdim. Byndan sonra and olsyn oglymyn canьna, çeʒməq sɵzunu dilimə də ƣətirmərəm. Ƣəl ɵpuʒəq, barьʒak.

Mahmyd-bəj və Əhməd-bəj kycaklaʒьb, ɵpuʒdulər və əjləʒib, bir jerdə nahar etdilər.

Əhməd-bəj ƣetdi.

Mahmyd-bəj dogrydyr, by ƣundən ondan əl çəqdi, daha çeʒməq sifariʒini ona etmirdi. Amma by ahvalat cəmi ʒəhərə jajьlmьʒdь, duqənlərdə, bazarda, jьgьncaklarda, ancak Mahmyd-bəj ilə Əhməd-bəjin çeʒməq əhvalatьndan baʒka bir sɵhbət jok idi.

Əhməd-bəj byndan da diltənƣ olyb, həmiʒəliq xanəniʒin olyb, altь-jeddi il evindən çьkmadь. Ʒəhərdə belə danьʒьrdьlar qi, Əhməd-bəj xətbi-dimag olyb, dogrydyr byny ɵz ajiləsindən savaj ƣɵrən jok idi, amma hamь byny dogry bilirdi.

Axьr ƣunlər Əhməd-bəjin evinin ustundə çəqilən səlat, onyn vəfat xəbərini ʒəhər əhlinə jetirdi.

Camaat hər jerdən dəstə-dəstə onyn təзjii-cinazəsi uçun cəm oldylar.

Əhməd-bəjin nə'зinin ustundə hamıdan çok aglajan və «Karдaз vaj!» dejib, baзına dəjən Mahmyd-bəj idi. Dostynyn dəfni uçun hətta Mahmyd-bəj juz manat da para verdi.




Kara saçlarь çijninə tɵqulmuş, başьnda kara qəndir ilə sarьlmьş təjləsan, kara, yzyn kyrşagьna dəq sakkal, kara bɵjuq və surməji ƣɵzləri, bojnynda bir pyt ƣələn zəncir, arkasьnda bir cejran dərisi.... By idi onyn kijafəsi.

Jol ƣedəndə heç qəslə danьşmazdь., heç qəsin syalьna cavab verməzdi. Dilindən ancak by sɵzlər eşidilərdi:

— Həkk movcyd! həkk movcyd!

By səbəbə onyn adьna hamь Həkk Movcyd dejərdi.

Uşaklar ony quçədə ƣɵrəndə hər biri bir jana kaçьb dagьlardь.

Analar uşaklarьnь korkyzmak istəjəndə dejərdilər: «O dyr, Həkk Movcyd ƣəlir!», ja-inqi «Hakk Movcyd, ƣəl, byny apar!»....

Uşak nə kədər aglagan olsa idi, fovrən səqit olardь. Nəinqi uşaklar ondan korkyrdylar, hətta bɵjuq adamlar da onyn muhib kijafəsindən çəqinirdilər.

Hər evə ƣetsə idi, əlbəttə ona pyl verərdilər, və dejərdilər qi, ony əli - boş jola salmak ajiləjə badbaxtlьk ƣətirər. Dərviş pyly alьb «Hakk Movcyd!» dejib ƣedərdi.

Bojnynda asdьgь agьr zəncirin nə oldygyny hər qəs soryşsa idi, cavab by olardь:

— Həkk movcyd!

Xalk «Hakk Movcyd»yn bir qəramət sahьbь oldygyna şəqq etmirdi.

Biri dejirdi-Cadyƣərdir, biri-sahirdir, biri-qimijaƣərdir.... xulasə, hərə bir ad kojmyşdylar. Hətta dejirdilər qi, ona itlər hurmur. Kapьlarda tojyklar, quçələrdə kyşlar, ony ƣɵrəndə kaçmьrlar. «Hakk Movcyd» məscid həjətində bir pəncərədə əjləşərdi, məsciddə təhsil edən tələbələrdən birisi ɵz ƣɵzu ilə sərçələrin hər ƣun ƣəlib «Hakk movcyd»yn mənzilinə dolyb, onyn dɵrt ətrafьnda atьlьb duşduqlərini ƣɵrmuşdu. Tələbə jəkin etmişdi qi, «Hakk movcyd»yn şəjatьn ilə əlakəsi var və ətrafьnda atьlьb, duşub, cykkyldaşan sərçələr heç bir şej dejil mə-

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

ɢər-inqi əcinnə və зəjatin. Kalan tələbələr də hamısı byna ınanmıзdılar.

Bə'zi vakt neçə ɢunlərlə «Hakk movcyd»yn kapısından kıfıl asılmıз ɢөrurdulər. On, on beз ɢunlər ilə itirdi. Heç jerdə ony «ɢөrdum» dejən olmazdı. Qimi dejirdi qi, jəkin magazaların birində rijazətə əjləзib, amma axynd və mollalar sərsəm xalkı ınandırırdı qi, by ɢunlərdə ɢecə xoryz banlajan zaman qimja ody ıзık verər; və ony da ancak əhli təkva ɢөrər. «Hakk Movcyd» da əhli təkva oldygyndan, jəkin, qimja ody aktarır.

Axynd ilavə edirdi qi, byny өzundən demir. By fikrəni Mirdamadın «Məcməul-ɢəramat»ında və həqim Findirisqinin «Qitabus-sirrul xəfijjat»ında ɢөrub.

Axynd molla sərsəm nufyzly bir vucyd oldygyndan hamı ınanmıзdı. Byna urəqdən e'tikad edənlərdən biri də nusxə bənd Meзədi Əqbər olmyзdyr.

By зəxs nusxəbənd oldygyndan өzunu elmi-qimjaja dara hesab edirdi. Qimja jolynda, jə'ni dəmiri və misi kızıla dөndərməq jolynda çok paralar sərf etmiзdi. Qimja odynyn muəjjən ɢecələrdə ıзık vermәsini da Mirdamadın və haqim Findirisqinin qitablarında okymyзdy. Hətta neçə ɢecə ɢedib meзədə kalmıзdı. Əhli təkva olmadıgından ony tapa bilməmiзdi. Meзədi Əqbər axyndyn mubarəq dilindən by sөzləri eзidib, «Hakk Movcyd»ilə dostlaзıb, ondan qimijaɢərliq өjrənməji kərara aldı.

«Hakk Movcydy» neçə dəfə Meзədi Əqbərin evinə ɢəlib, ɢedən ɢөrdulər. Meзədinin bir no' elmi-qimjadan baзı çıkdıgını bilib, jəkin etdilər qi, Meзədi, «Hakk Movcyd»dan qimja өjrənir.

ɢunlərin bir ɢunundə «Hakk Movcyd» jenə jok oldy. Neçə ɢun konзylar onyn Meзədi Əqbərin evinə tərəddunu ɢөrmədilər. Meзədi Əqbərin konзysy bir dəfə ondan xəbər aldı.

— A meзədi, by «Hakk Movcyd» ɢөrəsən jenə necə olyb? ɢөrunmur.

Meзədi by sөzu qinajə hesab edib, dedi:

— Mən nə bilim, necə olyb, onyn peзəsi ajlarla itib jenə uzə çıkmakdır. Bir də ɢөrəcəqsən çıkdı bazara. Bir də byny məndən soryзmagının mə'nası nədir? Mən «Hakk Movcyd»yn taj-tyзy dejiləm, joldaзı dejiləm.

Meзədi belə ɢyman edirdi qi, «Hakk Movcyd»yn bynyn evinə ɢəlib-ɢetdijini heç qəs bilmir. Amma bizim зəhər elə зəhərlərdən dejil, ɢecə xəlvət otakda birisi arvadı ilə bir səh-

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

bət edə, subh ony tamam əhalı bilər. Belə camaatdan «Hakk Movcyd», fılan qizlətməq olmaz.

«Hakk Movcyd»yn itməq səhbəti by dəfə зəhərdə ɵzqə bir vəzijjət aldı. Səhbət arasında əhalıdan biri zarafatla arvadına dedi:

— Jəkin Meзədi Əqbər «Hakk Movcyd»dan qimja ɵjrənəndən sonra ony ɵldurub qi, qimjanı ondan baзka adama ɵjrətməsin.

Arvad səhər hamamda halvaçı arvadı Xan-Sənəmi qɵrub, dedi:

— A kız, Xan-Sənəm, bir sɵz dejirlər axır..... Dejirlər: Meзədi Əqbər «Hakk Movcyd»y ɵldurub.

— A kız, o ony ɵldurub nə elijəcəq, «Hakk Movcyd» bir joksyl dilənçi dərviзdir, ony da ɵldurərlərmi?

— Axır, o qimja bilirdi. Meзədi Əqbər ondan qimjanı ɵjrənib, sonra da ɵldurub. Bak, by agıl qəsən iзdir.

Xan - Sənəm xala Fatma Nisəjə sɵjlədi, Fatma Nisə Əmir Alıb ogly Ələsqərin arvadı Qulxanıma dedi: Qulxanım Pərnisəjə, Pərnisə-Cahanbanıja, Cahanbanı jyjycy Allahjetərə, jyjycy Allahjetər - gəzet Mələjə. Xulasə, by xəbər tamam зəhərin arvadlarının arasına jajıldı.

Meзədi Əqbər «Hakk Movcyd»dan qimja ɵjrənib sonra da ɵldurub.

Axır byny da bilməq lazım olyb qi, ɵldurəndən sonra onyn nə'зini nə eləjib?

Biri dedi: «Zirzəmində basdırmıз olacak», biri dedi:«Dɵjlətli adamdır, kojar bir çyvalın içinə, qɵndərər зəhərdən çɵlə, bir jerdə basdırarlar». Biri dedi: «Jok, nə lazım basdırmak, təq adam bacarmaz зəhadət janında da basdırsa, axırda ustu açılar. Mən bilirəm jəkin ony ɵldurub bədənini də təndirə basıb, jandırıb. Ajrı cur heç ola bilməz».

By nəzərijjə arvad məclislərində çok danıзıldıkdan sonra məxfi bir syrət aldı və arvadların hamısı bir dil ilə dejirdilər:

Meзədi Əqbər «Hakk Movcyd»y ɵldurub, bədənini də təndirə basıb, jandırıb. Hətta arvadlardan neçə nəfər nəkl edirdilər qi, pijin kokysyndan meзədi Əqbərin evinin janından ɵtməq olmyr.

Meзədinin konзysy bir arvad təqjədə ətrafında otyranlara nəkl edirdi qi:

«Hakk Movcyd» axırıncı dəfə Meзədi Əqbərin evinə qələndən sonra dɵrt beз qun qecələr Meзədinin kapısından qələn

pijin kokysyndan jatmak olmadı. Jenə kabakca qıyman etdiq qi, konзyda sabınxana açıblar. Amma soryзyb bildiq qi, konзyda heç qəs sabın piзirmir, ij Meзədi Əqbərin həjətindən qəlir.

By fiqrə axırda qiзilər də зəriq oldylar və baзladılar Meзədi Əqbərə əjri bakmaga.

Bir qun Meзədi Əqbər duqənində əjləзdiji halda karadavoj qəlib xəbər verdi qi, pristav ony istəjir. Θmrundə pristav kapısı tanımajan Meзədi Əqbər kalkıb, duqəni baglajıb, karadavoj ilə qetdi.

Bəzzaz Qərbalajı Myxtar əhvalatı qərub, əttar yzyn byryn Xydaverdini səslədi:

— Xydaverdi, aзnanı pristav apartdı, «Hakk Movcyd»yn qimjasını byrnyndan təqəcəqlər.

Yzyn byryn Xudaverdi qulub, cavab verdi:

— Bəs qunahsız bir jazık dərviзi θldurəsən, onyn kanı jerdə kalarmı?

Pristav Meзədi Əqbəri qərən təq θz kabinəsinə çagırıb, kapını bagladı. Otakda ancak iqi nəfər kaldılar.

Pristav əjləзib və Meзədi Əqbərə də jer qθstərib, dedi:

— Meзədi, siz θzunuz bilirsiniz qi, mənim nə kədər sizdən razılıgım var; Xusysən sizin həmiзə θz qəsbinizdə olyb, baзı aзagı, namıs ilə çərəq kazanmagınız, həqumətin əmrlərinə urəqdən tabe' olmanız bir para həqumət əlində olan cəmijjətixejrijjələrdən pyly muzajəkə etməməjiniz həmiзə imnaji-devlətin iltifatına sizi najil edib.

Mən sizə zəhmət verib, byraja çagırmızam, amma nə etməli. Dogrydyr, çok da xəcalət çəqirəm, çunqu mənim bojnyma kojylmyз vəizfə çok agır vəzifədir. Amma bagıзlajasınız, kyllyk əmrinə itaət etməq də bizim borcymyzdyr.

Зəhərdə qəzən зajiatdan muxbirsiniz və mənə də əmr olynybdyr qi, sizi danıзdırıb, bəratulkovl jazıb, silistçijə qθndərim.

Bizə mə'lymdyr qi, «Hakk Movcyd» dejilən dərviз axır o vaktlar sizin evinizə qəlib-qedirmiз və byny da sizin konзylarınız hamısı qθrubdur. Avgyst ajının beзində haman dərviзin sizin evinizə qəldijini qθrublər, amma kajıdıb, qetdijini qθrən olmyjyb. Haman qundən dərviз «Hakk Movcyd» itibdir. Mən jəkin etmiзəm qi, dərviз «Hakk Movcyd»yn itməjinin sizə qəlib qetməsi ilə əlakədarlıgı jokdyr, bə-hər hal siz təq məhtərəm зəxsə by ləqəni ustunuzdən rədd eləməq vacibdir. Ona qθrə xahiз edirəm, by xysysda bir izahat verəsiniz.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

Pristav bir vərəkə qagьz ƣɵturub, kələmi əlinə alьb, jazmaga hazьrlaʒdь.

Pristav, Meʒədi Əqbərin oglynyn xəbərini, ja bankda jatan pyllarьnьn batmasьnь xəbər versə idi, bir belə əsər etməzdi qi, by sɵzlər ony jandьrdь; dedi:

— Aga pristav! Ʒəhərin arvadlarь agьzlarьnь avara kojyb, ƣundə bir ƣecə vagja (vək'ə) ƣɵrduqlərini həkikət hesab edib, boʒ ʒajiələr byrakacaklar, siz də ona kijmətmi verəcəqsiniz? Mən sizi ьnandьrьram qi, «Hakk Movcyd ɵlmujub, ƣɵrəsən, kəzalarьn hansьna ƣedib. Bir də ƣɵrəcəqsiniz qi, odyr bazarda ƣəzir. Siz mənə on ƣun məhlət verin, mən Hakk Movcydy jer dejiʒindən də olsa, ɵlusunu, ja dirisini tapdьrьb, kyllygynyza piʒnihad elijim.

Pristav cavab verdi qi:

— Mən sizi danьʒdьrьb, bəratulkol baglamaga məcbyram, və hətta byny sizə birdən deməq istəmədim. Ƣərəq sizi byradan karadavojlar silistçinin kyllygyna aparsьnlar.

«Silistçi» sɵzundən Meʒədinin az kaldь, dili dytylsyn. Baʒladь jalvarmaga:

— Pristav aga, mən ʒəhərdə bir abьr sahьbьjam, and olsyn sizin əziz baʒьnьza, ƣetdijim Məʒhədi-Mukəddəsə, mən mənə isnad verilən jollarьn adamь dɵjuləm.

Pristav Meʒədi Əqbər təq ƣirinə qeçmiʒ jaglь kojyny əlbəttə asanlьkla byrakmajacakdь; dedi:

— Mənim, sizin təmiz, mɵ'mun, mukəddəs, bir ʒəxs oldygynyza ʒəqqim jokdyr. Nə etməli əmrə itaət etməq mənim vəzifəmdir; joksa, məni kyllygymdan xarьc edib məhqəməjə verərlər. Təvəkki edirəm izahat verəsiniz.

Məsələsinə Arif, həmiʒə ɵz təqlifini bilən Meʒədi Əqbərin sag əli ƣetdi arxalьgьnьn cibinə və pristav da zənn ilə ƣɵzlərini tiqdi onyn əlinin hərəqətinə. Bir azdan sonra əl çibdən çьkdь və bir dəstə əsqinas pristavьn masasьnьn ustunə kojyldy.

Pristav masa ustunə kojylanьn nə oldygyny ƣɵrdu isə də, jenə Meʒədinin ƣɵzunun içinə bakьb sɵryʒdy:

— By nədir?

— Bir ʒej dejil, cənab! Mən sizdən təvəkki edirəm: by pyly ƣɵndərəsiniz gybernatoryn hərəminə, xejrijjə iʒlərinə xarc olynmak uçun. Mənə də bir az mɵhlət verəsiniz, mən kəzalara adam saldьrьm Hakk Movcydy harada olsa, tapьb ƣətirsinlər.

— Byny mən kabyl edərəm, by saat bir kəbiz jazьb, sizə verərəm.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

Pristav stolyn kytysyny açdь. Meʒədi ony dajandьrdь:

— Zəhmət çəqməjin, sizin sɵzunuz mənim uçun kəbizdən artьkdьr. Izin veriniz, kyllygynyzdan murəxxəs olym.

— Xoʒ ƣəldiniz. Sizə bir aj mɵhlət verirəm. Əƣər by bir ajьn muddətində dərviʒ tapьlmasa, məndən incimə jəsiniz.

— Baʒ ustə kəbylymdyr, allah sizi by camaatьn ustundən əjsiq etməsin! Xyda hafiz!

— Xoʒ ƣəldiniz.

Meʒədi ƣəldi duqəninə. Bir az otyryb, ƣetdi evinə. Sabahь ƣunu uç nəfər adam icrət ilə dytyb, kəzalara ƣəndərdi qi, Hakk Movcydyn ɵlusunu, ja dirisini tapьb ƣətirsinlər.

By fikrədən neçə ƣun qeçmiʒ ʒəhərin cavanlarьndan bir dəstə səjahat uçun ʒəhərin ətrafьnda məʒhyr bir bylagьn ustunə ƣedirlər. Jejib, içdiqdən sonra cavanlar dagьlьrlar meʒəjə bənevʒə və sajir çiçəqlər dərməjə.

Cavanlardan birisi meʒənin kalьn jerindən qeçməq istədiqdə agaclarьn arsьndan bir xorylty eʒidir.

Cavan kabakca ƣyman edir qi, surudən ajrьlmьʒ donyzdyr, agaclarьn arasьnda dolaʒьb, çьkmaga jol tapmьr. Istijir xoryltyja tərəf ƣetsin. Jenə ehtijat edib, joldaʒlarьnь səsləjir. Joldaʒlarь cəm olyrlar. Hamьsь bir jerdə agaclarь aralьjьb, jerijirlər, kabaga bir az ƣedəndən sonra joldaʒlardan birisi səsləjir,

— Qimsən? Aj oradaqь!

Cavab ƣəlmir.

— Qimsən? Cavab ver! Joksa, vyrdym.

Birdən səs eʒidilir.

— Hakk Movcyd!

Joldaʒlar «Hakka Movcydy» çəqirlər eʒijə.

— A qiʒi, neçə muddətdir, byrada nə kajrьrsan?

— Hakk Movcyd

Subh camaat Hakk Movcydy bazarda ƣəzən ƣɵrur. Meʒədi Əqbər onyn kolyndan japьʒьb ƣətirir pristavьn kyllygyna.

— Byjyryn, aga! By da sizin Hakk Movcydynyz! bilin qi, mən adam ɵldurən dejuləm.

— Məƣər mən ʒəqq edirdim Meʒədi!

---

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

# IT OJYNY



Kapьsь daldan baglь bir otagьn içində dərt nəfər ħəqumət çərəji jeməjə məhqym olmyʒlar əjləʒmiʒdilər.

Biri (N) kəzasьnьn afət və bəlasь sabik prakyror Ivanof idi, iqincisi ħaman kəzanьn pristavь Əzrajьl-bəj idi qi, onyn adь ilə onlar yʒaklarьnь korkydyrdylar. Iqi nəfər bazarda dalaʒanda biri-birinə dejərdi:

— Kardaʒьm, mənim canьma Əzrajьl-bəj olmamьsan? Nə istijirsən məndən?

Iqi jerdə kalanlar da neçə illərlə eli dəhʒətdə saklajan iqi kardaʒ kyldyrlar idi.

Ʒəhərdə pristavdan savaj heç qəsin əkrəbasь jok idi. O idi qi, onyn evindən hər ꞡun xərəq ꞡəlirdi. Pristav xərəjinin çok oldygyndan prakyrory da konak eləjirdi. Bə'zi vaktlar kyldyrlara da az-maz çatьrdь.

Bir ꞡun nahar vaktь pristav uzunu joldaʒlarьna dytyb, dedi:

— Ħəzərat! Sizə bir gəribə nagьl elijim. By prakyrory qi, ꞡərursunuz, bir vakt (N) kəzasьnьn Bəlaji-naꞡəhanь idi. Nə etməli qi, imdi təkdiri-kəzadan mənim bozbaʒьma məhtac olyb. Mən bynyn baʒьna-osmanlьlar demiʒqən-«tam mə'nasь ilə» bir it ojyny ꞡətirdim. Onyn imdijə dəq mənim o qələjimdən xəbəri jokdyr. Kojyn: imdi bilsin.

Mən (N) kəzasьnda pristav idim, kьlьcьmьn dalь da qəsirdi, kabagь da. Bir ꞡun adam dəjdurməsə idim, ꞡecə jata bilmirdim. Əvvələn by jerin camaatьna kьlьc musəlmanlarь dejərlər. Bynlarьn qi, bellərindən bir ꞡun dəjənəq əjsiq oldy, kydyryb, jollarьndan çьkьrlar. Iqincisi adam dəjdurməjən pristavьn camaat arasьnda kədr və kijməti olmaz; dejərlər: «Agzь javan pristav idi».

Səhbətin ʒirin jerində «Moltanь» ꞡəldi: «Allah saklasьn!». Bir də ꞡərdum haradansa, by zalьm ogly prakyror tə'jin olynyb, ꞡəldi, çьkdь. Bir iqi ꞡundən sonra məni çagьrьb dedi:

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

— Əzrajьl-bəj, mənə xəbər verirlər qi, siz byrada adam dəjdurursunuz, təvəkki edirəm, belə iʒləri kojasьnьz. Joksa bir də eʒitsəm, qi adam dəjdurmusunuz, məndən inciməjin, sizi məhqəməjə verəcəjəm.

Əlim, ajagьm qəsildi. Pristav olyb adam dəjdurməməqdən isə, ƣedib, əqinçiliq eləməq jaxʒьdьr.

Kardaʒlar, ɵz baʒьnьza ƣəlib; azьndan hər biriniz juz ogyrlyk etmisiniz. Imdi insafla dejin, belinizə agac dəjmijincə, bojynyza alьrdьnьz, ja jok?

Kyldyrlar iqisi də pristavьn sɵzunu təsdik etdilər. Birisi dedi:

Papagьnь koltygyna vyryb çəpər altьndan ogyrlyga ƣedən binamьsьn atasьna ƣərəq od vyryla.

Pristav nagьlьnda davam elədi:

—Bəli, əlim ajagьm qesildi, arvad qibi oldym; istədim istc'fa verim; sonra kəza ɵzu mənim kolymdan dytdy.

By prakyroryn bir jaxʒь av tylasь var idi. Jasavyllarь ɵjrətdim, tylanь ogyrlajьb, ƣizlətdilər. Prakyror bir ƣun, iqi ƣun, iti aktardь, tapa bilmədi. Axьr məni çagьrьb, jalvardь, qi, onyn itini tapьm. Dedim: «Baʒ ustə aktararam!». Bir on ƣun qeçdi. It tɵjlədə əjləʒib istirahətlə hər ƣun ətdən, çɵrəqdən jejirdi.

Bir ƣun mə'jys bir halda prakyroryn janьna ƣəlib, xəbər verdim qi, bəs iti ogyrlajan tapьlьb, jəkindir qi, iti aparan odyr; amma əldə rəsmi dəlil jokdyr; hər çi tə'qid edirəm, bojnyna almьr. And içir qi, itdən xəbərim jokdyr. Amma iti aparmagь jəkindir. Prakyror gejzə ƣəlib birdən dedi:

—Belə, bas o qafьr ogly qafьrь agacьn altьna! O kədər vyr, bir kat kabьgь ƣetsin! Onda bojnyna ƣɵturər.

Dedim: «Baʒ ustə!.»

Sabahdan prakyroryn itini ƣɵndərdim və o ƣundən bynyn izninə ƣɵrə baʒladьm: «Babam mənə qor dejib, ƣəlib-ƣedəni vyr, dejib!» baʒladьm sagdan sola, soldan saga dəjənəq çьrpmaga.

Prakyror kylak asьb, soryʒdy:

— Əzrajьl-bəj həkikət, iti sən ogyrlatmьʒdьn?

— Bəli!

— *Ax, tь maʒenniq!*




Hacь-Rystam təzə ʒəhərdə mɵ'təbər və mɵhtərəm bir tacir idi. Onyn həmiʒə ʒiarь by idi: «Fursəti fovt ejləməz akil, məƣər nadan ola». Ticarətə jeni kədəm kojanlara nəsihəti by idi: «Oglym, kazancьn azь-çoky olmaz. Bir jerdə qi, kazanc jeri ƣɵrdun, ɵzunu at oraja. Dejirlər ʒarab alьʒ-veriʒi haramdьr, boʒ sɵzdur. By hədisi ermənilər çьkarьblar qi, ʒarab-alьʒ-veriʒini ɵz əllərində saklasьnlar. Vəkta qi, ʒarab alьʒ-veriʒində kazanc ƣɵrdum, al, sat!. Mən ɵzum koca qiʒi Məqqəni, Mədinəni zijarət etmiʒ və uzumu Həcərulə-əsvədə surtmuʒəm. Vəkta qi, mən dejirəm, kabyl edin». Hacь-Rystam heç vakt firsəti fovt etməmiʒ. Odyr qi, təzə ʒəhərdə uç bɵjuq evi, iqi mejvə bagь və bir top dagьtmaz duqəni var. Bnynla belə heç bir iʒdə danьʒьb, qəsiʒməsə, əlini cibinə salmaz. Mə'lymdyr qi, xəzinədən ƣələn verƣi e'lanьnьn mukabilində danьʒьk olmaz. Hacь-Rystam byrada da çalьʒьrdь qi, bir neçə ʒahь, heç olmasa, bir neçə kəpiq saldьrsьn. Ƣɵrəndə qi, danьʒьk jeri jokdyr, qagьzь verərdi oglyna:

— A bala çɵtqəni ƣɵtur, hesabla, ƣɵr byrada səhv jokdyr qi!. Taks-maks bilməzdi. Bazara ƣundə juz taks kojsynlar Danьʒьb qəsiʒməsə idi, jarьm ƣirvənqə sogan da almazdь.

Oglyna, duʒəndə dejirdi:

— By əjjamьn cavanlarь hər biri ildə neçə juz manat «Eh nejlijim»ə verir. Məsələn: ƣedir, bazardan çit, ja mejvə alьr, ƣəlir evə, hesablajanda ƣɵrur iqi ʒahь artьk veribdir. O saat dejir: «Eh, nejlijim, cəhənnəmə! Dyryb iqi ʒahьdan ɵtru bir də duqənçi ilə çənə-bazara çьkmьjacagam qi?!». Çənə bazara da çьkaram, duqənçinin atasьna da od vyraram. Fajtona minirlər. taksь beʒ ʒahьdьr, duʒəndə bakьr qi, cibində xьrda pyl ancak altь ʒahьdьr, ƣɵrursən hamьsьnь atdь fajtonçynyn ustunə. Soryʒsan qi, nijə fajtonçydan bir ʒahьnь almadьn, dejəcəq: Eh nejlijim, atasьnьn əti olsyn.

By ahmak iʒdir, kojma bir kəpijin nahak jerə ƣetsin! Vaktdan, movke'dən istifadəni həmiʒə cavanlara məsləhət ƣɵrurdu.

Byrada bir balaca haʒijə çьkьb, jenə də mətləb ustə kajьdьrьk.

Bir nəfər maraldan nagьl edirdilər (əl-əhdəhu ələr-ravi, vəbalь nagьl edənin bojnyna. Jalan-dogrylygyna zəmanət etmirəm. Jalan isə də-əz ƣil saxtənd,xyb saxtənd), bəli, bir nəfər maraldan, nagьl edirdilər qi, o da fursəti fovt eləməzdi. Iranda çok biqar ƣəzəndən sonra bakьr, ƣɵrur qi, sigəxanalar sahьblarьna çokly mənfəət verir. Ancak ony dajandьran bir məsələ idi; bakьr, hər sigəxanada bir nəfər muəllim axynd əjləʒib, ƣələnlərə sigə okyjyr. Maral molla da ƣəldi. Sonra ƣɵrdu qi, byrada mollalьk artьk ƣərəq dejil, təq byny bilməq qifajətdir: «Məttə'tu nəfsi bi-nəfsiqə.-Kəbiltu!» vəssalam. By sɵzlər dejiləndən sonra kьz olyr sigə eləməjə ƣələnin halal malь.

Maralьm savadlь idi, təb'i-ʒe'ri də vardь.

Çok fiqirdən sonra mənzil qirə edib, neçə nəfər quçələrdə dolanan arvadlardan oraja doldyryb, baʒьna bir qarlь əmmamə sarьjьb, əjləʒdi jykarь baʒda və məʒgyl oldy ticarətə.

«Məttə'tu nəfsi bi-nəfsiqə-kəbiltu»!

Bir neçə muddət maral by iʒə məʒgyl oldy. Axьrda Iran polis adamlarьnьn dəkikədə bir jol ƣələnlərinin «muftə» istifadə edənlərinin əllərindən tənƣə ƣəlib, sigəxananь baglajьb ag əmmaməni ala-bəzəq əmmaməjə dɵndərib, mərsijəxan sifəti ilə Kafkaza ƣəlir. Neçə il qəmali-muvəffəkijjətlə rovzəxanlьk elijir. Axьrda dokkyz juz beʒinci ilin inkьlabь duʒur. Hər jerdə mətbyat iʒləri baʒlajьr ƣeniʒlənməjə. Camaatьn təvəccuhu javaʒ-javaʒ mollalardan dɵnur. Maral o saat bynyn ƣələcəjini ƣɵrur. Əmmaməni jerə kojyb, zijalьlarla jakьnlaʒьb, əl kojyr ƣəzetələrə zəmanəjə muvafik əʒ'ar jazmaga. Bynynla Husnurəgbət və ʒɵhrət kazanьr. Bir az qeçir, Iran inkьlabь baʒlanьr. Səttərxan, Bagьrxan, Jefrimxan, Nəmənəxan, Nəstəxan...maral baʒlajьr patron-tufənƣ ticarətini. Sɵz jok qi, byrada da fьlan kədər para kazanьr. Axьr hɵqumət byny dytyb, surƣun edir. Maral surƣundə də biqar dyrmyr. Bir dənə bakkal duqəni açьb əjləʒir ticarətə.

On jeddinci ilin inkьlabьnda vətənə kajьdьb, hamьnь inandьrьr qi, o əsla ticarət etmirdi. Onyn çalьʒmagь ancak Iran inkьlabçьlarьna mukavəmət ƣɵstərməq idi. Irana ƣɵndərdiji əslihə təʒqilat malь idi və bynyn ustundə də surƣun edilmiʒdi. Beləliqlə ɵzunu menʒeviqlər partijasьna sokyr. Sonra qələjinin us-

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

tu açьlьb partьjadan kovyrlar. Kafkazda kala bilməjib, jenə qeçir Irana. Neçə il byndan əvvəl dostlarьmdan biri Maralь Xorasanda ƣɵrmuʒdu. Dejirdi qi, by saat orada sigə dəllallьgь edir. Qarvansalarь dolanьb, zuvvarlara sigə təqlif edir:

«Meʒədi, sigə nə mixahi?» çok təcribə etdiqdən sonra hər jerin adamlarь nə no' arvad xoʒladьklarьnь ƣɵzəl bilir. Məsələn Baqьdan ƣələnlərə.... qifajətdir, təfsil baʒlasak, axьrda cəncələ duʒəriq.

Bəli, Hacь-Rystamdan danьʒak.

Hacь Rystamьn atasь bakkal idi. Hər il jaj fəslində jajlaga motal, jag almaga ƣedərdi; Xьrman zamanь da ƣedib, qənt-bəqənt ƣəzib nisjə jьgardь. Çok vakt oglyny da ɵzu ilə apararardь. Hacь-Rystam bakьb atasьnьn pyl kazanmak jolynda çəqdiji zəhməti ƣɵrurdu. Bir jandan da bakьrdь qi, Irandan qeçmiʒ bir sejid iqi gyryʒ majasь jok, «Ja cədda!» dejib xьrmanlarь dolanьr, axʒama dəq bir at juqu taxьl cəm eləjir, aparьr, bazarda satьr, jenə duʒur qəntlərə. Hacь-Rystamьn cavanlьkdan ƣɵzləri açьk idi. Bakdь qi, bakkallьkdan sejidliq xejirlidir; nə səriʒtə, ʒəcərə istəjən var, nə bir sorgy-syal edən.

Atasь ɵləndən sonra duqəni baglajьb, baʒьna bir jaʒьl əmmamə sarьjьb, baʒladь sejid sifəti ilə ƣəzməjə. Həkikət də pyl baʒladь baʒьndan jagmaga.

Bir dəfə joly jajlaga ƣedən elata duʒdu. Qɵç mənzil elijib hejvanlarь duzə byrakmьʒdь. Hacь-Rystam ƣəlib, «cəddimin pajьnь» istədi. Qɵç əhli e'tina eləmədi. Atьnьn jedəjindən dytyb, alaçьklarь bir-bə-bir ƣəzdi, bir ʒej olmadь. Labudd kalьb birdən kьʒkьrdь.

— Camaat, mənim cəddimin pajьnь verməsəniz sizin sutunuzu kana dɵndərəcjəm. By sɵzlə dьrnagьnьn arasь kьrmьzь cəhər ilə doly barmagьnь «Ja cədda!» dejib, bir kazan təzə sagьlmьʒ sudun içinə salьb byladь. Fovrən sydun rənƣi kьzardь.

By «mɵ'cuzu» agadan ƣɵrən qɵç əhli onyn ajagьna duʒub, uzr istəjib, torba dagarcьgьnь doldyrdylar. Atьnь byrnyna dəq juqləjib, ƣəldi evinə.

Bir az zamanda Hacь-Rystam atasьnьn iqi-uç dɵjlətincə dɵjlət kazandь.

Ƣunlərin bir ƣununda xəbər aldь qi, hɵqumət təzə ʒəhər binasь kojyr, xahiʒ edənə pylsyz ev və bag jeri verib, on iqi il də hər bir xəracatdan azad edirlər.

By xəbəri eʒidib, Hacь-Rystam evi bɵjuq oglyna tapʒьrьb, bir baʒ təzə ʒəhərə uz kojdy. Jetiʒib ƣɵrdu qi, hər jerdən ev

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

jeri almak uçun adam gəlib. Ətraf tamam əvamıstan, by jerdə jaxзı dəjlət kajırmak olar.

Ərzə verib, həm ev jeri, həm bag jeri alıb, kajıtdı vətənə. Byrada satmalını satıb, aparmalını gəturub, qəç quflətini jıgıзdırıb, qəçdu təzə зəhərə. O vaktan orada saqindir. Jaxзı dəjlət kazanıb Məqqəjə gedib.

Mən gərəndə jaзı həзtada adlamıзdı. Camaat arasında da bəjuq e'tibar sahıbı idi.

Onyn əz iзlərində sər-hesab oldygyndan bir зej jenə nagıl edim.

Bir gun Hacı-Rystamın duqən konзysy Ysta-Həsən papakçı, gərdu: bydyr Hacı, baзı, gəzu, sarıklı, jaman bir halda gəlir.

— Aj Hacı, olmasın azar; sifətini nijə sarımısan?

— Ysta-Həsən əlurəm. By gecə səhərə dəq ylamıзam.

— Nə olyb? de gərum!

— Nə olacak Diзim məni əldurur.

— Mən də dedim, gərəsən nə var, diз agrısının bircə ilacı var: Qəlbətin, Hətta by xusysda atalar da dejiblər:

Konзyn pisdir, qəç kyrtar!
Diзin pisdir, çəq kyrtar!
Arvad pisdir, boзa kyrtar!
Canın pisdir, əl kyrtar!

— Rəhmətliq ogly, sənin də içini zarafat almıзdır mən dejirəm əlurəm, by da otyryb mənə kyrt-kyran açır.

Axır mən nə elijim? Get çəqdir, kyrtarsın!

— Elə mən də ona gəlmiзəm. Dejirlər byrada bir jaxзı ləzgi dəlləji var. Amandır, harada olsa, gər, ony tapdıra bilərsənmi.

— Aj Hacı, dəlləq nədir? Çagıraçaksan, gəlib, bir at qəlbətinini salacak diзinə, dartıb əngini də diзinin ustundə çəqəcəq. Byrada gəzəl diз həqimi var. Dyr, səni aparım onyn janına! Bir dəkikədə diзini çəqib səni rahat eləsin.

— O mənim bir diзimi çəqməjə məndən neçə alacak.

— Necə, neçə alacak? Nə istərsə, verərsən.

— Jok kardaз, mən tacir adamam, mənim hər bir hakk-hesabım gərəq ajdın olsyn.

— On зahı verərsən, kyrtarar, gedər.

— On зahı nədir, qiзi! On зahıja mən on dənə diз çəqdirərəm. Bircə kylak as, sənə baзıma gələndən bir qejfijjət nagıl elijim. Cavan vaktımda... yf!... yf!... yf!... aman! aman...

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

ɵldum, kyrbanьnьz olym. Cavan vaktьmda (hələ byraja qɵçməmiʒdim) sag tərəfimdən ust diʒlərimdən biri bərq agrьdь. Ustunə saglьk, Ysta-Həsən! Bir agrь dytdy qi, dizin-dizin surunub, əlimlə ot joldym. Adam ƣɵndərdim bazardan dəlləq Meʒədi-Tejmyr var idь., ony çagьrtdьm... yf.... yf... yf!... jenə nə jaman agrьsь dytdy by zəhrmarьn! Meʒədi-Tejmyr ƣəlib bakdь, dedi qi: çəqməqdən savaj ilacь jokdyr. Dedim: «Nə bilirsən, elə!» Qəlbətini iliʒdirdi diʒimə, ƣucu ƣəldiqcə, dartdь. Diʒ çьkmьr qi, çьkmьr..... Jazьk Meʒədinin alnьndan tər tɵqulur. Hər dəm bir dejir: «Aga-Rystam bərq dyr!» (o vakt hacь dejildim) dejirəm: «Dyrmyʒam». Xulasə:... yf!... yf!.... yf!... aman allah... aman allah... elə qi, ƣɵrdu ƣucu çatmьr, dedi: «Dyr ajaga!». Kalkdьm ajaga. Qəlbətini bir də iliʒdirdi. Bir də bakdьm: Meʒədi ajaklarьnь jerdən uzub diʒimdən asьlьb. Daha diʒim davam eləməjib, bir qɵqlu agac qibi jerindən kopdy. Jazьk Meʒədi Tejmyr jerə dəjib, çyl qibi sərildi. Jalan olmasьn, jarьm saat o halda kaldь. Bir belə zəhmətdən sonra ona mən iqi ʒahь kara pyl verdim, hər kəpijinə bir dəfə «Allah qisənə bərəqət versin!» dedi. Imdi mən aparьm matьʒkanьn birinə on ʒahь verim? Nədi-nədi, bir az «iʒto-miʒto» okyjyb! Bacarmьjacagam.

— Aj qiʒi, bynyn əli təmiz, ajagь təmiz çiçəq qibi. Meʒədi-Temyr hara? By hara!

— Necə, Meʒədi-Tejmyryn əlindən onyn əli təmizdir? Meʒədi-Tejmyr ƣundə uç dəfə dəstəmaz alьr, amma sənin matьʒkan təharət nə oldygyny bilmir... aman!.... aman!... Aman!... Baʒьm çatladь!

«Danьʒma, dyr, duʒ kabagьma! ƣedəq. Sən diʒini çəqdirərsən, mən də bir az ʒirə çəqərəm. Ony ƣɵrəndə dejəcəqsən: diʒimin otyz iqisini də byna çəqdirim.

Ysta-Həsən, Hacь-Rystamь apardь diʒ həqiminin janьna.

Həqim, timtraklь bir xanьm Hacьnь əjləʒdirdi, qursunun ustundə.

— Agrьjan diʒinizi ƣɵstərin!

Hacь dedi:

— Xanьm mən tacirəm; Kabakca byjyr, ƣɵrəq nə alacaksan.

— Diʒ çəqmənin taksasь on ʒahьdьr.

— Mən heç bir ƣirvənqə qələmi taksa ilə almьram, taksa ilə diʒ çəqdirəcəjəm? Sənə bircə abbasь verəcəjəm diʒimi çəqəcəqsən, vəssəlam!

— Byra sənin duqənin dejil, çənə bazarƅna çƅkasan. Xahiʒ eləmirsən ƣedə bilərsən.

Hacƅ dajanƅb, fiqrə ƣetdi. Bir azdan sonra dedi:

— Ejbi jokdyr, çəq! Agrƅjan diʒim bydyr.

Həqim diʒi çəqib kojdy jerə.

Ysta-Həsən! Allah sənin evini bərbad eləsin! Məni jaxʒƅ həqim janƅna ƣətirdin! By qi, bajtaldƅr, belə də həqim olar. Allah bynyn evini jƅxsƅn!

Həqim sorysdy. Nə olyb?

— Nə olacak? Allah sənin bəlanƅ versin. Agrƅjan diʒimi kojyb, salamat diʒimi çəqdin!

Həqim hər çi ƅnandƅrdƅ qi:

— Ɵzun ƣɵstərdijin diʒi çəqmiʒəm. Hacƅ sɵjub-sɵjlənib dedi:

— Di, ƣəl evi jƅxƅlmƅʒƅn kƅzƅ, bak agrƅjan diʒim bydyr.

Həqim ony da çəqib jerə kojdy.

Hacƅ ilan çalmƅʒ təq jerindən kalkdƅ.

— Aj sənin adƅnƅ həqim kojyb, byra ƣɵndərənin atasƅ it olsyn! Aj sənə dərs verənin atasƅ ƣor-bə-ƣor olsyn! Ƣərəq dəlləqlijini bizim baʒƅmƅzda ɵjrənəsən? Səni həqim jazanƅn kələmi sƅnsƅn. Jenə salamat diʒimi çəqdin. Agrƅjan diʒim bak bydyr, by!

Həqim nə kədər and içdi isə, jenə Hacƅ saqit olmadƅ.

— Adƅnƅ diʒ həqimi kojynca, ƣedib ɵzun uçun bir junƣul peʒə tapa idin. Bak zalƅmƅn kƅzƅ, agrƅjan diʒim bydyr.

By dəfə Həqim, Hacƅnƅn agrƅjan diʒini çəqdi.

Hacƅ on ʒahƅ verib sɵjlənə-sɵjlənə çƅkdƅ çɵlə və çɵldə Ysta-Həsənə dedi:

— Ysta-Həsən! Ƣɵrdun analar necə ogyl dogyb? Bak əsil ticarət byna dejərlər. Diʒimi bir abbasƅja çəqməjə razƅ olmadƅ, mən diʒin birini ona on jeddi kəpijə çəqdirdim. Byndan sonra kijamətə dəq Hacƅ-Rystam onyn jadƅndan çƅkmaz.

---

# Qitabɩn içindəqi heqajələr


Səhifə

Mukəddimə əvəzinə . . . . . . . . . . . . . . . . . . . . . 3

1-Mutrub dəftəri . . . . . . . . . . . . . . . . . . . 5

2-Ʒiqajət . . . . . . . . . . . . . . . . . . . . . 7

3-Kiraət . . . . . . . . . . . . . . . . . . . . . 10

4-Dəccal-abad . . . . . . . . . . . . . . . . . . 16

5-Ʒəbih . . . . . . . . . . . . . . . . . . . . . 20

6-Pir . . . . . . . . . . . . . . . . . . . . . 23

7-Tənkid . . . . . . . . . . . . . . . . . . . . 29

8-Acɩndan təbib . . . . . . . . . . . . . . . . . 34

9-Bomba . . . . . . . . . . . . . . . . . . . . 37

10-Həmʒəri pasporty . . . . . . . . . . . . . . . 39

11-Qeçmiʒ qunlər . . . . . . . . . . . . . . . . 44

12-Yca dag baʒɩnda . . . . . . . . . . . . . . . 51

13-Sejidlər ocagɩ . . . . . . . . . . . . . . . . 61

14-Çəʒməq . . . . . . . . . . . . . . . . . . . 67

15-«Hakk movcyd» . . . . . . . . . . . . . . . . 73

16-It ojyny . . . . . . . . . . . . . . . . . . . 79

17-Diʒ agrɩsɩ . . . . . . . . . . . . . . . . . . 81



Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

Bibliothek der
Deutschen
Morgenländischen
Gesellschaft.

Fai 26087

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

D: Fai 26087

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

ULB Halle 3/1
001 351 559

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19

Ə. HƏKVERDOF

# MARALLARЬM



1927 AZƏRNƏƷR BAQY

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-881717347-19